## 2016-cı il «Multikulturalizm ili»dir

# Azərbaycan örnək ola biləcək əsl tolerantlıq nümunəsidir

Dövlətimizin başçısı cənab İlham Əliyev 2016-cı ili «Multikulturalizm ili» elan etmişdir. Multikulturalizm ilinin elan olunması gözlənilən idi. Çünki Azərbaycanda multikulturalizm sanki həyat devizinə çevrilib və dövlət bu yöndə mühüm addımlar atıb. Artıq ölkəmiz müxtəlif mədəniyyətlər və sivilzasiyalar arasında dialoqa dair sanballı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilib. Bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları var. Çünki Azərbaycanda bütün xalqlar, müxtəlif dinlərin nümayəndələri əsrlər boyu bir ailə kimi yaşayıblar.

Qeyd olunmalıdır ki, ölkədə milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması faktdır və bu Azərbaycan xalqının güc mənbəyidir. Ölkə başçısının da mədəniyyət və din sahəsində beynəlxalq təşəbbüslərə göstərdiyi dəstək nəticəsində Azərbaycan dünyanın tolerantlıq mərkəzinə çevrilib. Hələ 2008-ci il dekabrın 2-3-də Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransında ölkə başçısı İlham Əliyevin irəli sürdüyü təkliflər tədbirin beynəlxalq əhəmiyyətini daha da artırdı. Konfransda Prezident tərəfindən sivilzasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan «Bakı prosesi» »nin əsası qoyuldu və bu, təşəbbüsün qlobal bir prosesə çevrilməsinə səbəb oldu.

Müxtəlif mədəniyyətlərin və qitələrin qovşağında yerləşən Azərbaycanın həm geosiyası vəziyyəti, həm də mədəni zənginliyi «Bakı prosesi» çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxarıb daha qlobal səviyyəyə yüksəlməsinə imkan verir. Bu mənada, «Mədəniyyətlərarası dialoqa dair Bakı prosesi»nin davamı olaraq, Prezident İlham Əliyevin dəstəyi ilə 2011-ci ilin aprelində Bakıda «Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu»nun keçirilməsi təşəbbüsü irəli sürüldü. Bu forumun ölkəmizdə təşkili İslam və Avropa mədəniyyətini özündə ehtiva edən Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tətbiq olunması, ölkəmizin nüfuzunun yüksəldilməsi, eyni zamanda ölkəmizin dünya mədəniyyətinə inteqrasiyasına xidmət edir. Onu da xatırladaq ki, Prezident 2011-ci il mayın 27-də Fərman imzaladı və ona uyğun olaraq, ölkə başçısının himayəsi və iştirakı ilə «Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq» şüarı altında 2013-cü ilin mayında Bakıda İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Forumun əsas tərəfdaşları qismində yenə də UNESCO, BMT-nin sivilzasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatı kimi beynəlxalq qurumların nümayəndələri çıxış etdilər. 2015-ci il mayın 18-19-da «Bakı prosesi» çərçivəsində paytaxtımız yenidən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etdi. Forumda bir daha sübut olundu ki, «Bakı prosesi» ölkə başçısının dünya xalqları və mədəniyyətlərarasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən platforma və layihələri birləşdirən qlobal xoşməramlı çağırışdır.

Azərbaycan bütün zamanlara örnək ola biləcək əsl tolerantlıq nümunəsidir və bu təkcə ölkədə yaşayan milli və etnik azlıq nümayəndələrinin deyil, həm də beynəlxalq aləmin səmimi etiraf etdiyi məsələdir.

**Aslan Cəlilov.**

---

# Müdhiş şənbə gecəsi

20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü münasibətilə Qəbələ Rayon Mədəniyyət Mərkəzində tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Qəbələ Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Nargilə Qafarova açmış, 20 Yanvar şəhidlərinin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Nargilə Qafarova çıxışında 20 Yanvar gününün ümumxalq faciəsi, eyni zamanda müstəqillik, istiqlal və azadlıq uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunduğunu qeyd etmişdir.

Natiq vurğulamışdır ki, bu təcavüz xalqımızı mənəvi cəhətdən sarsıda bilməmiş, onun mənliyini tapdalaya, qürurunu sındıra bilməmiş, əksinə, 20 Yanvar Ümumxalq Hüzn Günü xalqımızın qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazılmış və tariximizin bu səhifəsi imperiya güllələrinin səsi ilə açılsa da, şəhidlərimizin qanı ilə qəhrəmanlıq salnaməsinə həkk olunmuşdur.

Tədbirdə mədəniyyət mərkəzinin direktoru Malik Ağayev və digər mədəniyyət işçiləri çıxış etmiş, müdhiş şənbə gecəsini törədənlərə qarşı nifrət hisslərini bildirmişlər.

---

# Şəhid olan və itkin düşənlərin ailələrinə yardım edildi

Ümumxalq Hüzün Günü Rayon mədəniyyət mərkəzində şəhid ailələri, itkin düşənlərin ailələri, Qarabağ müharibəsi əlilləri və imkansız ailələrlə görüş keçirilmişdir. Qızıl Aypara cəmiyyəti Qəbələ Rayon bölməsinin təşkilatçılığı ilə keçirilən bu tədbirdə ictimaiyyətin nümayəndələri də iştirak etmişlər.

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, sonra Qızıl Aypara Cəmiyyəti rayon bölməsinin sədri Sədaqət Bayramova, Qəbələ Premium Quşçuluq Fabrikinin direktoru Oqtay Xankişiyev, Böyük Vətən müharibəsi və Qarabağ Əlilləri Cəmiyyəti rayon bölməsinin sədri İmran Mustafayev XX əsrin sonlarında XXI əsrin əvvəllərində ölkəmizdə baş verən siyasi hadisələrdən və Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ müharibəsinin başvermə səbəblərindən danışmış şəhidlərimizin xatirəsinin heç vaxt Azərbaycan xalqının qəlbindən silinməyəcəyini bildirmişlər.

Sonda Qarabağ müharibəsində şəhid olanların, itkin düşənlərin ailələrinə və imkansız ailələrə Qəbələ Premium Quşçuluq Fabrikinin rəhbərliyi adından toyuq və toyuq məmulatlarından ibarət 150-yə qədər yardım edilmişdir.

**N. ATAKİŞİYEV.**

---

# Müasir Azərbaycan, uğurlu siyasət və nəticələr

Zəngin problemli hadisələrlə dolu 2015-ci il artıq arxada qaldı. Ötən hər gün bütün bəşəriyyət üçün heç də uğurlu olmayan bu ildə bizi baş verən hadisələri nəzərə almağa, onu qiymətləndirməyə sövq edir. Əlbəttə, ötüb keçən uğurlara, buraxılan nöqsanlara, yaranmış problemlərə nəzər salmadan irəliyə getmək, problemləri aradan qaldırmaq mümkün deyildir.

2015-ci ildə də hələ xeyli əvvəllər baş verən qlobal böhran davam etmiş, daha da dərinləşmişdir. Nəinki iqtisadi böhran dərinləşmiş, hətta siyasi və hərbi böhran baş vermiş, yeni təhlükə ocaqları yaranmışdır. Yaxın şərqdə, Avropada baş verən hadisələr artıq hamıya yaxşı məlumdur. Şübhəsiz ki, belə qlobal böhranlar müstəqil Azərbaycana da öz təsirini göstərməyə bilməzdi. Son hadisələr, manatın məzənnəsinin aşağı düşməsi, süni qiymət artımları, yaranmış vəziyyətdən istifadə edərək Avropada radikal qüvvələrin, islamafobiya meyillərinin artması bütün bunların təzahürüdür.

Baş verən hadisələri nəzərə alan ölkə başçısı cənab İlham Əliyev çevik tədbirlər görməkdə davam edir. İlham Əliyev nazirlər kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir: "2015-ci ildə geosiyasi və geoiqtisadi mənzərə çox narahatedici və ağırdır. Bu reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqla hesablaşmalıyıq. Əlbəttə ki, bu reallığı nəzərə alaraq öz siyasətimizi bu il və bundan sonrakı illərdə davam etdirəcəyik".

Cənab Prezident dünyada baş verən proseslərə baxmayaraq ötən ilin yekunlarından danışarkən qeyd etmişdir ki, ölkəmizdə ümumidaxili məhsul bir faizdən çox, sənaye istehsalı 2,4 faiz artmışdır. Qeyri-neft sənayesində isə yüksəliş 8,4 faizdir.

Ötən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Sərmayənin yarısı xarici investisiyadır. Bu, o deməkdir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici bir ölkəyə çevrilmişdir. Ölkədə digər iqtisadi göstəricilər də icra olunmuş, sosial proqramlar yerinə yetirilmişdir. İyirmidən çox məktəb tikilmiş, hazırda 23 məktəbdə təmir işləri aparılır, uşaq bağçalarının tikintisi davam edir. Yeni açılmış iş yerlərinin sayı isə yüz mini keçmişdir. Onlardan 84 mini daimi iş yeridir.

(Ardı 7-ci səhifədə).

---

# "Kənd təsərrüfatı ili" Qəbələ üçün uğurlu olub

Qəbələ rayonunda iqtisadiyyatın əsasını təşkil edən taxılçılıq, meyvəçilik və tərəvəzçilik məhsullarının satışından gəlir əldə edən kəndli fermerlər və fərdi təsərrüfat sahibləri bu sahələrin ildə-ilə daha da inkişaf etdirilməsini qarşıya məqsəd qoymuşlar. Mütəxəssislər 2015-ci il "Kənd təsərrüfatı ili"-ni Qəbələnin torpaq mülkiyyətçiləri üçün uğurlu olduğunu hesab edirlər. Belə ki, kəndlilər əvvəlki illərlə müqayisədə 2015-ci ildə əkin sahələrini xeyli artırmaqla yanaşı, bu sahələrdən bol məhsul da götürmüşlər.

2015-ci ildə Qəbələdə kənd təsərrüfatı məhsullarının yığımı vaxtında və itkisiz başa çatdırılmışdır. İl ərzində 21 min 300 hektar sahədən 64 min 645 ton taxıl, 1261 hektar sahədən 3 min 144 ton qarğıdalı, 130 hektar sahədən 1872 ton bostan məhsulları, 143 hektar sahədən 114 ton günəbaxan, 2 min 96 hektar sahədən 9 min 495 ton tərəvəz, 1157 hektar sahədən 7 min 497 ton kartof tədarük olunmuşdur. Ötən il bağbanlar 458 hektar üzüm sahəsindən 1414 ton, 10 min 429 hektar meyvə bağından 14 min 115 ton məhsul yığmışlar. Bütün bu nəticələr əvvəlki ilin göstəricilərindən xeyli yüksəkdir. Belə ki, 2015-ci ildə 26 min 512 hektar sahədə yazlıq və payızlıq məhsulların əkini aparılmışdır ki, bu da əvvəlki illə müqayisədə 1800 hektar çoxdur. Bundan əlavə, cari ilin məhsulu üçün 22 min 510 hektar sahədə taxıl səpilmişdir (ötən ilkindən 1210 hektar çox). Həmçinin son bir ildə Qəbələdə 220 hektar sahədə yeni meyvə bağları salınmışdır.

---

# Azərbaycanda 1 milyon 295 min 900 nəfər əmək pensiyası alır

1 yanvar 2016-cı il tarixə Azərbaycanda əmək pensiyası alan şəxslərin sayı 1 milyon 295 min 900 nəfərdir. Dövlət Sosial Müdafiə Fondundan verilən xəbərə görə, ölkə üzrə əmək pensiyaçılarının sayı 2015-ci ilin əvvəlinə 1 milyon 290 min 900 nəfər olub və yanvar-dekabr aylarında 5 min nəfər və ya 0,4 faiz artaraq, 1 yanvar 2016-cı il tarixinə 1 milyon əmək pensiyalarının orta aylıq məbləği 176,03 manat, o cümlədən yaşa görə əmək pensiyasının orta aylıq məbləği 196,08 manat təşkil edib. Əmək pensiyasının üç növü vardır: yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası, ailə başçısını itirməyə görə əmək pensiyası.

**A. Cəlilov.**